**"Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı"na aşağıdakı əlavələr edilsin:

Ali ixtisas təhsili bölməsində "HS 152800 Kulturologiya" sözlərindən sonra "HS 152900 Teatr və kino aktyoru, HS 153000 Musiqili teatr aktyoru, HS 153100 Estrada aktyoru, HS 153200 Dram rejissoru, HS 153300 Televiziya rejissoru, HS 153400 Kino rejissoru, HS 153500 Kütləvi tədbirlər və tamaşalar rejissoru, HS 153600 Teatr kollektivləri rejissoru, HS 153700 Estrada rejissoru, HS 153800 Xalçaçı rəssam, HS 153900 Bədii şüşə və keramika üzrə rəssam, H S 154000 Zərgər və nəqqaşlıq üzrə rəssam, HS 154100 Sənaye qrafikası üzrə rəssam, HS 154200 Modelyer-rəssam, HS 154300 Dizayner-rəssam" sözləri yazılsın.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 2 noyabr 2000-ci il
198

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 noyabr, № 11.- S.4687.